BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Sosial-siyasi elmlər seriyası 2010

# VƏRƏSƏLİK HÜQUQU MÜLKİ HÜQUQUN BİR SAHƏSİ KİMİ

**R.S.DÜNYAMALIYEVA**
***Bakı Dövlət Universiteti***
***Raisa Dünyamalıyeva@gmail.com.***

*Vərəsəlik hüququ vərəsəliklə bağlı olan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu olaraq müstəqil hüquq sahələrindən biri olan mülki hüququn tərkib hissəsi kimi cıxış edir.Hər bir ölkənin öz vərəsəlik hüququ olduğu kimi, Azərbaycan Respublikası da öz vərəsəlik hüququna malikdir. Məqalə göstərilən vərəsəlik hüququnun xüsusisiyyətlərinə həsr olunmuşdur.*

Vərəsəlik hüququ barədə danışanda mülki hüquq kimi o da iki mənada başa düşülməlidir: obyektiv və subyektiv mənalardada. Məhz bu cür yanaşma məzmun və mənaça çoxcəhətli anlayış olan vərəsəlik hüququnun mahiyyətinə aydınlıq gətirilməsinə imkan verir və kömək edir.

Obyektiv mənada vərəsəlik hüququ dedikdə vərəsəliklə bağlı olan münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür ki, bu münasibətlər ölmüş şəxsin əmlak (mülki) hüquqlarının və vəzifələrin başqa şəxslərə (vərəsələrə) keçməsi prosesində yaranır. Məhz bu mənada, vərəsəlik hüquq normalarının məcmusu baxımından vərəsəlik hüququ müstəqil hüquq sahələrindən biri olan mülki hüququn struktur elementi - tərkib hissəsi kimi çıxış edir. Mahiyyətcə eyni sosial-iqtisadi təmələ malik olan, bilavasitə cəmiyyətin çoxəsrlik ailə, milli və əxlaqi ənənələri əsasında formalaşan həmin normalar özlərinin konkret hüquqi və texniki-hüquqi məzmunu cəhətdən üst-üstə düşməyərək bir-birlərindən fərqləndiyinə görə hər bir ölkənin öz vərəsəlik hüququ (obyektiv mənada) vardır ki, onların biri digərindən mühüm xüsusiyyətləri ilə seçilir və ayrılır. Bu səbəbdən Azərbaycan Respublikasının vərəsəlik hüququnun, Rusiya Federasiyasının vərəsəlik hüququnun, ABŞ-ın vərəsəlik hüququnun və s. mövcud olmasından, ümumiyyətlə, hər bir dövlətin öz vərəsəlik hüququna malik olmasından danışmaq olar. Ümumi vərəsəlik hüququndan, yəni ölkələrin hamısı üçün ümumi və vahid olan vərəsəlik hüququnun mövcud olmasından danışmaq isə məntiqsizdir. Hər bir dövlətdə obyektiv mənada vərəsəlik hüquq normalarını həmin dövlətin özü yaradır və buna görə də olkələrdə tətbiq edilən ümumi vərəsəlik hüququ mövcud deyildir.

Obyektiv mənada vərəsəlik hüququ struktur element kimi mülki hüququn tərkibinə hansı «statusla» daxil olur? Başqa sözlə, obyektiv mənada vərəsəlik hüququnun ibarət olduğu vərəsəlik hüquq normalarının nıəcmusu mülki hüququn tərkib hissəsi kimi institutu, yoxsa yarımsahəni yaradır? Qeyd etmək lazımdır ki, hüquq ədəbiyyatında bu suallara birmənalı cavab olmadığına görə xeyli müddətdir ki, mübahisə predmetinə, diskussiya obyektinə çevrilmişdir. Həmin məsələ, yəni vərəsəlik

hüququnun mülki hüququn institutu və ya yarımsahəsi olması Mülki hüquq elmində (doktrinasında) ən çox müzakirə olunan məsələlərdən biri sayılır.

Elə müəlliflər vardır ki, onlar vərəsəlik hüququnun mülki hüquq sistemində yerini müəyyənləşdirərkən ona mülki hüquq institutlarından biri kimi baxırlar. Vərəsəlik hüququ mülki hüququn bir hissəsi kimi, onun institutlarından hesab edilməsi barədə fikir söyləyən Serebrovski V.İ. yazır ki, vərəsəlik hüququ üzrə əmlak hüquqlarının (şəxsi mülkiyyət hüququnun və s.) keçmə qayda və şərtlərini tənzimləyən qanunvericilik normalarının məcmusu mülki hüququn hissəsi (institutu) olan vərəsəlik hüququnu yaradır (18, 14).

Analoji mövqedə B.S.Antimonov və K.A.Qrave də dururlar. Onlar vərəsəlik hüququnu mülki hüququn institutlarından biri kimi tanıyırlar (2, 6).

O.S.İoffe də vərəsəlik hüququnu mülki hüququn institutlarından biri hesab edir (15, 6). P.S.Nikityuk da məsələyə eyni cür yanaşaraq vərəsəlik hüququnu mülki hüququn institutu hesab edir. O yazır ki, vərəsəlik zamanı hüquq və vəzifələrin miras qoyanın vərəsələrinə keçməsi qaydası hüquq normaları ilə müəyyən olunur ki, həmin normaların məcmusu mülki hüququn vərəsəlik hüququ adlı institutunu yaradır. Başqa bir fikir vərəsəlik hüququnun mülki hüquq sistemində tutduğu yeri institut kimi müəyyənləşdirir (14, 3).

Qeyd etmək olar ki, sovet dövrünün elmi və tədris hüquq ədəbiyyatı səhifələrində (monoqrafiyalarda, mühazirə kurslarında və s.) vərəsəlik hüququ mülki hüquq sistemində tutduğu yer baxımından institut kimi xarakterizə olunur. Vərəsəlik hüququnu mülki hüququn institutlarından biri kimi tanımaq tendensiyası hətta müasir dövrün ədəbiyyat səhifələrində müşahidə olunur. Məsələn, T.İ.İllarionova yazır ki, mülki hüququn strukturunda vərəsəlik hüququ institut kimi xüsusi yer tutur (10, 15).

Vərəsəlik hüququna mülki hüququn institutlarından biri kimi baxmaq tendensiyası həm də xarici ölkələrdə hiss olunur. Xarici ölkələrin mülki və ticarət hüququ barədə ədəbiyyatda göstərilir ki, ölmüş şəxsin hüquq və vəzifələrin başqa şəxslərə keçməsi ilə bağlı münasibətləri tənzimləyən hüquq normalarının məcmusu kimi vərəsəlik hüququ xarici ölkələrin mülki hüququnun institutu sayılır (9, 278).

Vərəsəlik hüququnun mülki hüququn sistemində tutduğu yeri müəyyənləşdirmək barədə söylənilən ikinci fikrin mahiyyəti isə bundan ibarətdir ki, vərəsəlik hüququ ölmüş şəxsin hüquq və vəzifələrinin başqa şəxslərə keçməsi prosesini tənzimləyən hüquq normaların sistemi kimi mülki hüququn yarımsahəsi hesab edilir. Vərəsəlik hüququnun mülki hüququn strukturuna onun yarımsahəsi kimi daxil olması barədə fikir xüsusən Rusiya Federasiyasında daha geniş səslənir. M.D.Yeqorov vərəsəlik hüququnu mülki hüququn yarımsahəsindən biri hesab edərək yazır ki, vərəsəlik hüququnun əsas işi ölmüş şəxsin əmlakının onun vərəsələrinə keçməsi ilə bağlı münasibətləri tənzimləməkdən ibarətdir (8, 24).

E.A.Suxanov da məsələyə eyni cür yanaşaraq göstərir ki, vətəndaş öldüyü halda əmlakın başqa şəxslərə keçməsini tənzimləyən vərəsəlik hüququ mülki hüququn yarımsahəsidir. Müəllifin fikrincə, mülki hüquqa münasibətdə adətən xüsusi hissə anlayışı işlədilmədiyinə görə o, beş yarımsahə ilə əhatə olunur ki, vərəsəlik hüququ da onlardan biri hesab edilir.

Müəlliflərdən A.N.Qusev də mülki hüquq sistemində vərəsəlik hüququnun «statusunu» eyni cür müəyyənləşdirir. O, qeyd edir ki, mülki hüququn yarımsahəsi qismində həm də eyni zamanda vərəsəlik hüququnun adını çəkmək olar (12, 16).

Mülki hüququn yarımsahəsi olması barədə tezis V.V.Dolinskaya tərəfindən də

dəstəklənir və qeyd edilir ki, mülki hüququn məzmunu ayrı-ayrı struktur hissələrdən ibarətdir və həmin hissələrdən bunu tədricən yarımsahə statusu əldə edən vərəsəlik hüququ hesab edilir (5, 23).

M.M.Rassolov mülki hüququn daxilində altı yarımsahə fərqləndirir və vərəsəlik hüququ onlardan biri kimi nəzərdən keçirilir. Müəllif belə hesab edir ki, öz spesifik xüsusiyyətinə görə mülki hüququn predmetinə bir neçə növ ictimai münasibət, o cümlədən vərəsəlik münasibətləri daxildir ki, həmin münasibətlər vərəsəlik hüququ ilə tənzimlənir (6, 25).

E.V.Protas da mülki hüququn sistemində vərəsəlik hüququnun yerini yarımsahə kimi müəyyənləşdirir. Belə ki, mülki hüququn altı yanmsahədən ibarət olması fıkrini söyləyən müəllif vərəsəlik hüququnu onlardan biri kimi tanıyır (17, 11).

Göstərilən ideyanı dəstəkləyən İ.L.Korneyeva qeyd edir ki, obyektiv mənada vərəsəlik hüququ dedikdə vərəsəliyi tənzimləyən hüquq normalarının məcmusu başa düşülür. Məhz bu normalar mülki hüququn dördüncü yarımsahəsini - vərəsəlik hüququnu yaradır.

Başqa fikrə görə, ölümündən sonra xüsusi mülkiyyət hüququ əsasında vətəndaşa məxsus olan əşyaların, əmlakın, habelə əmlak hüququ və vəzifələrinin bir və ya bir neçə şəxsə (vərəsələrə) keçməsi ilə bağlı yaranan vərəsəlik münasibətləri mülki hüququn yarımsahəsi kimi vərəsəlik hüququnun predmetini təşkil edir. Göründüyü kimi, bu fıkir də vərəsəlik hüququnu mülki hüququn yarımsahəsi kimi tanıyır (4, 13).

V.V.Quşinin verdiyi elmi tərifə görə mülki hüququn yarımsahəsi kimi vərəsəlik hüququ dedikdə ölmüş şəxsin əmlakının universal hüquq varisliyi qaydasında başqa şəxslərə keşməsi ilə bağlı yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür (13, 141). Müəllifın verdiyi bu tərifdən belə bir nəticə çıxarmaq mümkün olur ki, o, vərəsəlik hüququna mülki hüququn yarımsahəsi kimi baxmaq istəmişdir.

Zənn etmək olar ki, göstərilən müəlliflər tərəfındən vərəsəlik hüququnun yarımsahə kimi tanınması barədə söylənilən hər bir elmi fıkir dəyərli və qiymətli olub, onun mülki hüquq sistemində tutduğu yeri müəyyənləşdirmək, eləcə də obyektiv mənada vərəsəlik hüququnun mahiyyətini dərindən və hərtərəfli anlamaq baxımından əhəmiyyətlidir. Əsaslı, inandırıcı və həqiqətə uyğun olduğuna görə qeyd etmək olar ki, vərəsəlik hüququnun mülki hüququn strukturuna yarımsahə kimi daxil olması barədə fikrini dəstəkləmək və qəbul etmək vacibdir.

Ancaq bu fıkri irəli sürən müəlliflər nədənsə əsaslandırmırlar ki, nəyə və hansı səbəbə görə vərəsəlik hüququ mülki hüquq tərkibində yarımsahə statusu əldə edir. Bu baxımdan S.Allahverdiyevin nə üçün vərəsəlik hüququnun mülki hüququn yarımsahəsi olmasını əsaslandırmağa təşəbbüs göstərməsini, bundan ötrü onun kifatyət dərəcədə tutarlı dəlillər gətirməsini təqdirəlayiq hal hesab etmək olar. Onun fıkrincə, vərəsəlik hüququ, birincisi, ayrıca olaraq nizamasalma predmetinə, ikincisi, nizamasalma metoduna, üçüncüsü özünə xas prinsiplərə, dördüncüsü, bir neçə hüquq institutuna malik olmasına görə mülki hüququn tərkibində yarımsahə statusu əldə edir (1, 630).

Doğrudan da, etiraf olunmalıdır ki, hər bir müstəqil hüquq sahəsinin tərkibində yarımsahənin fərqləndirilməsi üçün həmin yarımsahənin özünün ayrıca nizamasalma predmetinə malik olması tələb edilir. Vərəsəlik hüququ üçün ayrıca olaraq öz nizamasalma predmetinin mövcudluğu şərtsiz olub, hər hansı mübahisə predmeti ola bilməz. Belə ki, şəxs öldüyü halda onun sağlığında malik olduğu əmlakın başqa

şəxslərə (vərəsələrə) keçməsi ilə bağlı olaraq müəyyən növ ictimai münasibətlər - vərəsəlik münasibətləri yaranır ki, həmin münasibətlər mülki hüququn hər hansı struktur bölməsinin vasitə və köməyi ilə tənzimlənmir. Şəxsin ölümü ilə əlaqədar olaraq yaranan vərəsəlik münasibətləri məhz mülki hüququn struktur bölməsi olan yarımsahə statuslu vərəsəlik hüququnun nizamasalma predmetinə - hüquqi tənzimetmə obyektinə daxildir.

Inkar etmək olmaz ki, yarımsahənin fərqləndirilməsi üçün onun öz hüquqi nizamasalma metoduna malik olması tələb edilir. Sözsüz, vərəsəlik hüququnun özünəxas tənzimetmə metodu vardır və bu, hər hansı müzakirə obyekti ola bilməz.

Mövcud olan fikirlə razılaşmaq olar ki, vərəsəlik hüququnda universal (ümumi) hüquq varisliyi metodundan istifadə edilir (6, 15).

Bu məsələ barədə deyilənlərə əlavə olaraq göstərilməlidir ki, vərəsəlik hüququnda həm də eyni zamanda xüsusi hüquq varisliyi kimi metodun tətbiq edilməsi mümkündür.

Qeyd olunmalıdır ki, istənilən yarımsahənin hər hansı müstəqil hüquq sahəsi tərkibində yarımsahə statusu əldə etməsi üçün onun özünəxas sahədaxili prinsiplərə malik olması tələb edilir. Vərəsəlik hüququ üçün belə prinsiplər mövcud olub, heç kəsdə zərrə qədər şübhə doğura bilməz. Deyilənləri təsdiqləmək üçün təkcə bunu demək kifayətdir ki, vərəsəliklə bağlı münasibətlərin hüquqi tənzimlənməsi ailə mənafeyinin qorunması kimi iki vacib prinsipin uyğunlaşdırılması, onların əlaqələndirilməsi əsasında həyata keçirilir.

Şübhə yoxdur ki, prinsiplər istənilən müstəqil hüquq sahəsinin, o cümlədən onun yarımsahələrinin mühüm nəzəri məsələsidir. Bu sözləri olduğu kimi eyni ilə vərəsəlik hüququnun prinsipləri barəsində də demək olar. Çünki həmin prinsiplərdə vərəsəliyin sosial, iqtisadi mahiyyəti, hüquqi məzmunu, onun hüquqi tənzimlənməsinin xarakteri və təşkili məsələsi təzahür edir.

Vərəsəlik hüququnun prinsipləri dedikdə şəxsin ölümü nəticəsində onun əmlakının başqa şəxslərə (vərəsələrə) keçməsi ilə bağlı olaraq yaranan vərəsəlik münasibətlərini tənzimləyən hüquq normalarında ifadə olunan əsas ideyalar və rəhbər başlanğıclar başa düşülür ki, bu ideya və başlanğıclar vərəsəlik hüququnun əsasını təşkil edir. Çünki vərəsəliyin hüquqi nizamlanması və qaydaya salınması onların köməyi ilə həyata keçirilir.

Ancaq təəssüflə qeyd olunmalıdır ki, subyektiv şüurumuzdan asılı olmayaraq obyektiv surətdə mövcud olan və ayrı-ayrı hüquq normalarında ifadə edilən prinsiplər (söhbət vərəsəlik hüququnun prinsiplərindən gedir) qanunverici tərəfindən rəsmən, birbaşa, normativ göstəriş və direktiv şəklində formulə edilmir. Bu da ki, öz növbəsində ayrı-ayrı hüquq normalarında əks olunduğuna görə ümumməcburi qüvvəyə malik olan prinsiplərin təsir imkanlarını azaldır. Vərəsəliyə aid hüquqi məsələlərin həllində və normativ tənzimetmənin həyata keçirilməsində onların effektiv rol oynamasına mane olur. Odur ki, vərəsəlik hüququnun prinsiplərinin mühüm element kimi xüsusi olaraq normativ formada rəsmiləşdirilməsini, qanunvericilik qaydasında bilavasitə təsbit olunmasını, Mülki Məcəllə səviyyəsində birbaşa formulə edilməsini vacib sayır və məqsədəuyğun hesab olunur. Bundan ötrü, hər şeydən əvvəl, Azərbaycan Respublikası Mülki Məcəlləsinin «Vərəsəlik hüququ» adlı bölməsində (10-cu bölmə) qanunverici tərəfindən «vərəsəlik hüququnun prinsipləri» kimi ayrıca bir maddə daxil olunmasını və bu maddədə vərəsəlik hüququnun prinsiplərini sadayalan siyahı verilməsini təklif etmək olardı.

Tam dəqiqliklə güman etmək olar ki, belə maddənin nəzərdə tutulması və müəyyənləşdirilməsi vərəsəlik münasibətlərini mülki hüquqi tənzimetmə mexanizminin effektivliyini artırar, ona müsbət mənada böyük təsir göstərərdi.

Lakin qanunvericilikdə vərəsəlik hüququnun prinsiplərinin birbaşa normativ göstəriş və direktiv şəklində formulə edilməsi şəraitində təqdirəlayiq haldır ki, çox az sayda bəzi müəlliflər hüquq ədəbiyyatı səhifələrində vərəsəlik hüququnun prinsiplərinin geniş surətdə işıqlandırmasına, həmin prinsiplərin mahiyyətinə aydınlıq gətirilməsinə, eləcə də onun sivilistika elmində, o cümlədən vərəsəlik doktrinasında ən «sevimli» mövzulardan birinə çevrilməsinə təşəbbüs göstərirlər (16, 34).

Vərəsəliyin sosial təyinatını və mahiyyətini dərindən anlamaq, bu hadisə ilə bağlı münasibətləri tənzimləyən normativ qanunvericilikdə hüquqi boşluq olduqda müvafıq məsələni analogiya institutunun köməyi ilə düzgün həll etmək, yəni konkret hüquq norması mövcud olmadığı hallarda vərəsəli hüququnun prinsiplərini tətbiq etmək, həmin qanunvericiliyi təfsir etmək, eləcə də vərəsəlik hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin normativ hüquqi tənzimlənməsini həyata keçirmək baxımından həmin fikirlərin vacib rol oynamasına şübhəmiz yoxdur.

Göstərilən müəlliflərin hüquq ədəbiyyatı səhifələrində ayırdıqları və elmi baxımdan əsaslandırdıqları vərəsəlik hüququnun prinsiplərinin hamısının vərəsəlik münasibətlərinin tənzimlənməsində tətbiq edilməsi, bu prinsiplərin özündə vərəsəlik hüququnun ən xarakterik cəhətlərini və daha başlıca xüsusiyyətlərini əks etdirməsi heç bir etiraz doğurmur. Bu səbəbdən onları qəbul etmək olar. Bununla bağlı vərəsəlik hüququnun prinsiplərini sadalayan belə bir siyahı təklif olunur:

1. Vərəsəlik varisliyinin universallığı prinsipi. Bu prinsipə görə miras qoyan şəxsin mülki hüquq və vəzifələri vərəsələrə kompleks halında, hər hansı şəxsin vasitəçiliyi olmadan keçir, bir aktla qəbul edilir.

2. Vəsiyyət azadlığı prinsipi. Bu prinsipə görə miras qoyan vəsiyyətnamə tərtib etməklə əmlakını və ya onun bir hissəsini istənilən fiziki və ya hüquqi şəxsə, dövlətə və yaxud bələdiyyəyə vəsiyyət edə bilir.

3. Vərəsəliyin mühafizəsi prinsipi. Bu prinsipə görə vərəsəlik hüququ dövlət tərəfindən qanunla qorunur, bu hüquq pozulduqda isə məhkəmə qaydasında və digər yolla müdafiə olunur, vərəsəliyə Konstitusiya səviyyəsində təminat verilir.

4. Növbəlik prinsipi. Bu prinsipə görə qanun üzrə vərəsələr beş qrupa bölünür və onlar buna uyğun olaraq vərəsiliyə növbə ilə çağırılırlar.

5. Ailə mənafeyinin qorunması prinsipi. Bu prinsipə görə miras qoyan öldükdə, ilk növbədə vərəsəliyə onun ailə üzvləri, yəni həyat yoldaşı, uşaqları və valideynləri çağırılırlar.

6. Miras paylarının bərabər olması prinsipi. Bu prinsipə görə qanun üzrə vərəsəlik zamanı miras əmlak öz növbəsində vərəsəliyə çağırılan vərəsələr arasında bərabər surətdə bölünür.

7. Miras əmlakın vərəsəlik hüququ üzrə dövlətə keçməsi prinsipi. Bu prinsipə görə əmlak dövlətə vəsiyyət edilibsə, miras qoyanın nə qanun üzrə, nə də vəsiyyət üzrə vərəsələri yoxdursa, bütün vərəsələr vərəsəlik hüququndan məhrum ediliblərsə və ya vərəsələrdən heç biri miras əmlakı qəbul etməzsə, miras əmlak vərəsəlik qaydasında dövlət mülkiyyəti olur.

8. Vərəsəlikdə məcburi pay almaq prinsipi. Bu prinsipə görə miras qoyanın uşaqları, həyat yoldaşı və valideynləri vəsiyyətnamənin məzmunundan asılı olmayaraq, onlardan hər birinə qanun üzrə vərəsəlik zamanı çatası məcburi payın yarısını,

yəni ikidə bir hissəsini alırlar.

Vərəsəlik hüququnun əsaslandığı və onun oynadığı başlıca rolu şərtləndirən prinsipləri, vərəsəlik hüququnun tənzimetmə metodu ilə sıx surətdə bağlıdır. Prinsiplər kimi vərəsəlik hüququ nəzəriyyəsinin vacib məsələsi sayılan tənzimetmə metodu nə qanunvericilikdə, nə də mülki hüquq elmində, o cümlədən vərəsəlik hüquq doktrinasında işıqlandırılmır və xüsusi olaraq ayrılmır. Buna görə də, zənn etmək olar ki, mülki hüququ tənzimetmə metodu ilə müqayisədə spesifik cəhətlərə malik olan həmin məsələnin mahiyyətinə vərəsəlik hüququ fikirlərində müfəssəl şəkildə aydınlıq gətiriləcəkdir. Başqa sözlə, tənzimetmə metodu vərəsəlik hüququnun əsas nəzəri məsələlərindən biri kimi hüquq ədəbiyyatında öz həllini gözləyir.

Belə bir nəzəri fikri mübahisə predmetinə çevirmək olmaz ki, istənilən yarımsahə eyni ictimai münasibətlərin ayrı-ayrı növlərini tənzimləyən müxtəlif hüquq institutlarından ibarət olmalıdır. Vərəsəlik hüququ məhz özündə vərəsəlik münasibətinin müxtəlif növlərini nizama salan bir neçə hüquq institutunu birləşdirir. Həmin hüquq institutları imkan verir, vərəsəlik mülki hüququn tərkibində yarımsahə statusu əldə etsin. Məsələn, vərəsəlik hüququnun tərkibinə qanun üzrə vərəsəlik, vəsiyyət üzrə vərəsəlik, məcburi vərəsəlik, vərəsəsiz əmlak üzrə vərəsəlik daxil edilir. Vərəsəliyin rəsmiləşdirilməsi, vərəsəliyin (mirasın) açılması, vərəsəlik hüquq subyektliyi, mirasın qorunması və digər hüquq institutlarıda daxildir ki, onlar cəmləşərək birlikdə mülki hüququn yarımsahəsi kimi vərəsəlik hüququnu yaradır. Aydın məsələdir ki, vərəsəlik hüququnun tərkibinə daxil olan hər bir hüquq institutunun öz nizamasalma predmeti vardır. Məsələn, vərəsəsiz əmlak üzrə vərəsəlik hüquq institutunun nizamasalma predmetini mirasın vərəsəlik qaydasında dövlətə keçməsi ilə bağlı yaranan ictimai münasibətlər təşkil edir; məcburi vərəsəlik hüquq institutunun nizamasalma predmetinə məcburi vərəsələrə qanun üzrə vərəsəlik zamanı çatası payın müəyyən hissəsini onların alması ilə əlaqədar yaranan ictimai münasibətlər daxildir.

Təbii ki, vərəsəlik hüququnun ibarət olduğu hər bir hüquq institutu da, öz növbəsində, yarıminstitutlara, subinstitutlara və daha kiçik struktur hissələrə bölünür ki, onlar daxilən bir-biri ilə xaotik yox, qarşılıqlı əlaqəli şəkildə bağlı olub, müəyyən sistem üzrə yerləşir və düzlənirlər. Məsələn, vəsiyyət üzrə vərəsəlik hüquq institutu vəsiyyətnamənin icrası, vəsiyyət tapşırığı (leqal), vəsiyyət həvalə etməsi və digər subinstitutlardan ibarətdir.

Deyilənlər belə fikir söyləməyə imkan verir ki, mülki hüququn yarımsahəsi kimi vərəsəlik hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlərin ayrı-ayrı növlərinin müəyyən xüsusiyyətlərə malik olması, öz növbəsində vərəsəlik hüququnun daxili struktur sistemləşdirilməsini, onun çərçivəsində müvafiq hüquq institutlarının mövcud olmasını və bu institutların subinstitutlara bölünməsini şərtləndirir.

Vərəsəlik hüququnun institutları dedikdə hüquq normalarının elə məcmusu başa düşülür ki, həmin normalar daxilən qarşılıqlı surətdə bir-biri ilə bağlı olan eyni növlü vərəsəlik münasibətlərini tənzim edir; bu institutların vasitəsilə vərəsəlik hüququnun nizamasalma predmetinə daxil olan vərəsəlik münasibətlərinin ayn-ayrı növləri tənzimlənir, həmin növ münasibətlər vərəsəlik hüququ institutlarının tənzimetmə predmetini təşkil edir. Yarımsahə kimi vərəsəlik hüququ dedikdə də məhz bir neçə eyni növlü və predmet baxımından qarşılıqlı surətdə bağlı olan hüquq institutlarının məcmusu başa düşülür, həmin institutların daxilən uyğunlaşdırılmış şəkildə vəhdət və birliyi ilə vərəsəlik hüququnun sistemi adlanır. Lakin təəssüf hissi ilə qeyd olun-

malıdır ki, vərəsəlik hüququnun sistemi kimi vacib nəzəri məsələyə nə mülki hüquq nəzəriyyəsində, nə də vərəsəlik hüququ doktrinasında toxunulur. Təəcüblü haldır ki, indiyə kimi vərəsəlik hüququ barədə yazan müəlliflərdən heç kim həmin məsələnin elmi cəhətdən işıqlandırılmasına diqqət yetirməmişdir. Buna görə də vərəsəlik hüququnun sistemi məsələsini sivilistika elmi (o cümlədən, vərəsəlik hüquq doktrinası) qarşısında duran və onun üstünə düşən vəzifələrdən biri sayılır.

Hüquq ədəbiyyatında belə bir nəzəri fikir geniş yayılmışdır ki, mülki hüququn hər hansı yarımsahəsinin tənzimetmə predmetinə daxil olan ictimai münasibətlərin ümumiliyi həmin yarımsahə üçün ümumi olan hüquq normalarının ayrılmasına imkan verir və bu normalar da birləşərək onun ümumi hissəsini yaradır (6, 15). Söylənilən bu kimi nəzəri fikri eyni ilə, olduğu kimi vərəsəlik hüququna da şamil etmək olar. Doğrudan da, vərəsəlik hüququ ilə nizamlanan ictimai münasibətlər nə qədər müxtəlif olsa və ayrı-ayrı münasibətlər üçün ümumi olan, onları birləşdirən və xarakterizə edən ümumi xüsusiyyətlər müəyyənləşdirmək mümkündür. Bu xüsusiyyətlər də, öz növbəsində, vərəsəlik hüququ üçün ümumi hüquq normalarının ayrılmasına səbəb olur. Belə normalar qanunvericinin subyektiv istək və mülahizəsindən asılı olmayaraq obyektiv surətdə mövcuddur ki, onların məcmusuna vərəsəlik hüququnun ümumi hissəsi deyilir. Məhz ümumi hissəyə malik olması vərəsəlik hüququnun mülki hüquq tərkibində yarımsahə statusu əldə etməsinə imkan verən əsaslardan biri kimi çıxış edir (7, 11).

Azərbaycan Respublikasının Mülki Məcəlləsi mülki hüququn yarımsahələrindən olan əşya hüququ (3-cü bölmə, 5-cü fəsil), öhdəlik hüququ (6-cı bölmə, 19-cu fəsil) və nəhayət vərəsəlik hüququ üçün (10-cu bölmə, 62-ci fəsil) ümumi müddəalar yarımsahələrin ümumi hissəsinin özü demək deyildir və bütövlükdə, tam halında onu əhatə etmir, ümumi müddəalar mülki hüququn yarımsahələrinin ümumi hissəsinin yalnız bir qismini təşkil edir. Buna görə də, ümumi hissə ümumi müddəalardan daha geniş və əhatəli anlayışdır. Odur ki, hər hansı struktur bölmənin mülki hüququn yarımsahəsi kimi tanınmasını şərtləndirən əsas tələb həmin bölmənin ümumi müddəalar müəyyənləşdirilməsindən yox, ümumi hissəyə malik olmasından ibarətdir. Hər hansı struktur bölmə istər hüquq institutu, istərsə də yarımsahə olsun, fərqi yoxdur, ümumi müddəalar formulə edir.

Vərəsəlik hüququ tərkibində obyektiv surətdə qanunvericinin subyektiv istəyindən asılı olmayaraq ümumi hüquq normalarının və bu səbəbdən həmin normaların məcmusu kimi ümumi hissənin mövcud olmasına baxmayaraq, vərəsəlik hüququnun ümumi hissəsi normativ göstəriş formasında, qanunvericilik qaydasında rəsmiləşdirilmir, mülki hüququn yarımsahələrindən yalnız öhdəlik hüququnun ümumi hissəsi normativ göstəriş formasında, qanunvericilik qaydasında rəsmiləşdirilir. Belə halı nəzərə alaraq qeyd olunmalıdır ki, vərəsəlik münasibətlərini tənzimləyən əsas normativ aktda - Azərbaycan Respublikasının Mülki Məcəlləsində vərəsəlik hüququnun ümumi hissəsinin ayrılmasını, başqa sözlə, ayrıca olaraq nəzərdə tutulmasını və bu məqsədlə həmin məcəlləyə xüsusi olaraq «Vərəsəlik hüququnun ümumi hissəsi» adlı bölmə daxil edilməsini vacib məsələ saymaq olar. Bu mülki hüquq elminin və vərəsəlik doktrinasının üstünə düşən ən mühüm vəzifələr sırasına aiddir.

Vərəsəlik hüququnun ümumi hissəsinin qanunvericilik qaydasında ayrılmasının vacib əhəmiyyəti vardır. Hər şeydən əvvəl, onu qeyd etmək vacibdir ki, vərəsəlik hüququnun ümumi hissəsi onun sistemləşdirilməsinin əsasını, bazasını təşkil edir. Belə ki, vərəsəlik hüququnun ümumi hissəsi müəyyən məsələlər (vərəsəliyin anlayışı

və əsasları, vərəsəlik hüququnun subyekt və obyekti, miras əmlak, vərəsə ola bilən şəxslər və vərəsəlik hüququ olmayan vətəndaşlar və digər məsələlər barədə ümumi xarakterli qaydalar) müddəalar müəyyən edir ki, onların bütün vərəsəlik münasibətlərinə tətbiq olunması mümkündür; həmin qaydalar bütün digər vərəsəlik hüquq normaları tətbiq edilərkən bu və ya digər dərəcədə nəzərə alınır. Bu baxımdan vərəsəlik hüququnun ümumi hissəsinin praktiki, hüquq tətbiqetmə əhəmiyyəti vardır. Vərəsəlik hüququnun ümumi hissəsi həm də sistem yaratmağa və nəzəri əhəmiyyətə malikdir.

Mülki hüquq elmində, o cümlədən vərəsəlik doktrinasında elmi maraq doğuran və müzakirə obyektinə çevrilən məsələlərdən biri obyektiv mənada (ya hüquq institutu, ya da yarımsahə mənasında) vərəsəlik hüququna verilən elmi tərifə aiddir. Bəzi müəlliflər universal və ya bilavasitə hüquq varisliyini məcburi element (əlamət) kimi vərəsəlik hüququna verdikləri elmi anlayışa daxil edirlər. 0.S.İoffenin fikrincə, vərəsəlik hüququ dedikdə, vətəndaşın ölümü nəticəsində yaranan bilavasitə və universal varislik münasibətlərini tənzimləyən normaların məcmusu başa düşülür.

Obyektiv mənada (institut mənasında) vərəsəlik hüququna buna oxşar elmi anlayış V.S.Makarova tərəfindən də verilir. O.S.İoffenin formulə etdiyi tərifı mahiyyətcə təkrarlayan müəllif yazır ki, vərəsəlik hüququ ölmüş şəxsin hüquq və vəzifələrinin bilavasitə və universal hüquq varisliyi qaydasında başqa şəxslərə keçməsi ilə bağlı yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının məcmusudur (19, 510).

Vərəsəliyin bilavasitə və universal hüquq varisliyi olması kimi əmanət vərəsəlik hüququnun elmi anlayışına E.A.Posse tərəfindən də daxil edilmişdir. Müəllifın fıkrincə, anlayışlarda həmin əlamətin göstərilməməsi və vərəsəliyin vətəndaşın ölümü ilə bağlı hüquq və vəzifələrin əldə edilməsinə müraciət edilməsi vətəndaşın ölümündən sonra hüquq və vəzifələrin başqasına keçməyin digər hallardan vərəsəliyi ayırmağın və fərqləndirməyin mümkün olmasına gətirib çıxardır. O, həm də eyni zamanda belə hesab edir ki, vərəsəlik hüququna verilən anlayışlarda vərəsəliyin bilavasitə və universal (ümumi) hüquq varisliyi olmasının xatırlanması vərəsəlik münasibətlərinin hüquqi tənzimlənməsinin təhlilində həlledici əhəmiyyətə malik olur (20, 409).

Müasir müəlliflərdən T.İ.İllarionova da məsələyə mahiyyətcə eyni cür yanaşaraq göstərir ki, vərəsəlik hüququnu vətəndaşın ölümü ilə bağlı olaraq universal hüquq varisliyinin məzmun və qaydaları müəyyən edir (10, 15).

Müəllif faktiki olaraq universal hüquq varisliyi, vərəsəliyin məcburi əlaməti kimi vərəsəlik hüququna verdiyi elmi tərifə daxil edir.

Universal hüquq varisliyi kimi əlamətə həm də V.V.Quşin tərəfindən mülki hüquqi yarımsahəsi nöqteyi-nəzərindən (yəni obyektiv mənada) vərəsəlik hüququna verilən elmi tərıfdə də rast gəlmək olar. Müəllif qeyd edir ki, vərəsəlik hüququ ölmüş şəxsin əmlakının universal hüquq varisliyi qaydasında başqa şəxslərə keçməsi ilə bağlı yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının sistemidir (13, 10).

Göstərdiyimiz müəlliflərdən fərqli olaraq alimlərin əksəriyyəti bilavasitə və universal hüquq varisliyi kimi əlaməti vərəsəlik hüququna verdikləri elmi anlayışa daxil etmirlər (22, 3) və vərəsəlik hüququna verdikləri anlayışda həmin əlamət göstərilmir.

Qeyd etmək lazımdır ki, müəlliflərin hər birinin bilavasitə və universal hüquq

varisliyi kimi əlamətin vərəsəlik hüququnun elmi anlayışına daxil edilib-edilməməsi barədə mövqeyində bu və ya digər dərəcədə yaxın məqamlar olmasın. Sözsüz, göstərilən məsələ barəsində söylənilən hər bir fikir həm nəzəri, həm də praktiki baxımdan əhəmiyyətli və dəyərli olub, elmi maraq doğurur. Ancaq buna baxmayaraq müəyyən qüsur və çatışmazlıqdan kənar olmadıqlarına görə söylənilən bütün tərifləri vərəsəlik hüququnun dolğun, uğurlu və münasib anlayışı hesab etmək olmaz.

Bir tərəfdən vərəsəlik hüququnun elmi anlayışına bilavasitə və universal hüquq varisliyinin daxil edilməsi onu ifadə edir ki, vərəsəlik hüququ yalnız bilavasitə və universal varislik qaydasında vərəsəliyi nizama salır, vasitəli və xüsusi vərəsəliyi isə tənzimləmək funksiyasını yerinə yetirmir.

Qeyd olunmalıdır ki, miras qoyanın ölümündən sonra onun hüquq və vəzifələrini vərəsələri heç kəsin vasitəçiliyi olmadan, bilavasitə miras əmlakı qəbul etmək aktı əsasında əldə edirlər; bu zaman üçüncü şəxs tərəfindən əlavə hərəkətlər edilməsi tələb olunmur. Bu nöqteyi-nəzərdən vərəsəlik bilavasitə hüquq varisliyi sayılır. Vərəsələrinə miras qoyanın ayrı-ayrı hüquq və vəzifələri yox, tam və bütöv halda onların bütün kompleksi keçir. Bu baxımdan isə vərəsəlik universal (ümumi) hüquq varisliyi hesab edilir; universal (ümumi) hüquq varisliyi dedikdə, hüquq və vəzifələrin məcmu halında başqasına keçməsi başa düşülür.

Bəzən şəxsə hüquq və vəzifələrin məcmusu (kompleksi) yox, bu və ya digər ayrıca hüquq və vəzifə keçir ki, belə varisliyə xüsusi varislik deyilir. Sinqulyar (xüsusi) varislik və universal (ümumi) varislik hüququ varisliyi iki növ olub, bir-birinə qarşı qoyulur.

Sinqulyar varislik qaydasında vərəsəliyin mövcud olması məsələsi xeyli müddətdir ki, müqayisə predmetinə çevrilmişdir və bu mübahisə indi də davam etdiyindən müasir dövrün mülki hüquq elmində, eləcə də vərəsəlik doktrinasında həmin məsələ hələlik öz həllini tapmamışdır. Həmin məsələyə birmənalı şəkildə münasibət bəsləyən müəlliflərin böyük əksəriyyəti varisliyin sinqulyarlığı ideyasını inkar edir, bəziləri isə həmin ideyanı qəbul etmirlər.

## ƏDƏBİYYAT


1. Allahverdiyev S. Azərbaycan Respublikası Mülki hüququ. Dərslik. 4 cilddə. IV c. Bakı: Diqesta, 2008, 943 s.
2. Антимонов Б.С. , Граве К.А. Советское наследственное право. М.: Наука, 1955, 540 с.
3. Атфитеатров Г.Н., Солодилов А.П. Право наследования в СССР. М.: Министерство юстиции СССР, 1948, 620 с.
4. Власов Ю.Н., Калинин В.В. Наследственное право Российской Федерации: Учебное пособие. М.: Юрайт, 352 с.
5. Гражданское право: Учебник. В 2-х ч. Ч. I /Под ред. А.Т.Калпина, А.И.Масляева. М.: 1997, Юрист, 720 с.
6. Гражданское право: Учебник / Под ред. В.В.Замеского, М.М.Рассолова. М.: 2002, Юнитис, 820 с.
7. Гражданское право: Учебник. В 2-х ч. Ч. I / Под ред. Е.А.Суханова. М.: БЕК, 2003, 861 с.
8. Гражданское право: Учебник. В 2-х ч. Ч. I / Под ред. А.П.Сергеева, Ю.К.Толстого. М.: Проспект, 1998, 786 с.
9. Гражданское и торговое право капиталистических государств. Учебник. В 2-х ч. Ч. II / Отв. ред. Л.Р.Нарышкина. Международные отношения. М.: 1984, 634 с.
10. Гражданское право: Учебник. В 2-х ч. Ч. II / Отв. ред. Т.И.Илларионова, В.А. Плетнев. М.: 1998, Норма-инфа, 748 с.

11. Советское гражданское право. Учебник. В 2-х ч. Ч. II / Под ред. Смирнова В.Т., Толстого Ю.К., Юрченко А.П. Л.: ЛГУ, 1982, 765 с.
12. Гражданское право: Учебник. В 2-х т. Т. II / Отв. ред. Гусев А.Н. М.: Норма-Инфа 2003, 648 с.
13. Гущин В.В. Наследственное право. Учебное пособие. М.: М.Дашков и К° 2003, 304 с.
14. Драников В.К. Наследование по завещанию в советском праве, К.: КГУ, 1957, 241 с.
15. Иоффе О.С. Советское гражданское право, курс лекций. В 3 ч. Ч. III: ЛГУ, 1965, 648 с.
16. Научно-практический комментарий к ГК РСФСР /Под ред. Рясенцева Е.А., М.: Юрид. лит. 1966, 870 с.
17. Протас Е.В. Гражданское право: Учебник. М.: Высшая школа, 2005, 736 с.
18. Серебровский В.И. Очерки советского наследственного права. М.: Академия наук СССР, 1953, 368 с.
19. Советское гражданское право. Учебник. В 2 т. Т. II / Под ред. О.А.Красавчикова, М.: Высшая школа, 1985, 910 с.
20. Советское гражданское право: Учебник. В 2-х ч. Ч. II / Отв. ред. В.Т.Смирнов, Ю.К.Толстой, А.К.Юрченко, Л.: ЛГУ, 1982, 765 с.
21. Черепахин Б.Б. Правоприемство по советскому гражданскому праву. М.: Госюриздат, 1962, 211 с.
22. Халфина Р.О. Право наследования в СССР. Изд. 2-е. М.: Госюриздат, 1952, 420 с.

## НАСЛЕДСТВЕННОЕ ПРАВО КАК ПОДОТРАСЛЬ ГРАЖДАНСКОГО ПРАВА

**Р.С.ДУНЬЯМАЛИЕВА**

### РЕЗЮМЕ

Наследственное право, являясь сводом норм, регулирующих наследственные отношения, являются подотраслью гражданского права. Как и любая другая страна, Азербайджанская Республика имеет свои нормы наследственного права. В статье анализируюся особенности наследственного права Азербайджанской Республики и даются некоторые рекомендации по ее совершенствованию.

## SUCCESSION LAW AS A BRANCH OF CIVIL LAW

**R.S.DUNYAMALIYEVA**

### SUMMARY

Succession law as a branch of Civil Law regulates civil-legal relationships related to succession. Azerbaijan Republic like other countries has its own regularities concerning succession law. The article analyzes specificities of succession law and provides recommendations on its perfection.